Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# 'Çevik' həbs olunub

indicə




Dini tənqid edən bloqerə hücum olub: 'Mən deyən olmalıdır'

Sosial mediada dini mövzuda mübahisəli çıxışları ilə tanınan "Çevik" ləqəbli bloqer **Məqsəd Bağırov** həbs olunub. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları tərəfindən saxlanılan bloqer barəsində Səbail rayon Məhkəməsində həbs qətimkan tədbiri seçilib.

31 yaşlı Bağırova Cinayət Məcəlləsinin 283.1-ci (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına yönələn hərəkətlər) maddəsi ilə ittiham verilib.

Bloqer sentyabrın 2-də yaşadığı Qəbələ rayonunda döyülmüş və xəstəxanaya yerləşdirilmişdi. Onu döyməkdə ittiham olunan **Kamran Bilalov**u da DTX əməkdaşları saxlayıb. Bilalov isə CM-nin 283.2.1 (dini nifrət və ya düşmənçiliyin salınması, zor tətbiq etməklə törədildikdə) maddəsi ilə ittiham olunur.

"Çevik" iyulun sonunda da inzibati qaydada 10 sutka həbs olunmuşdu. O zaman o, İnzibati Xətalar Məcəlləsinin 510.2-ci maddəsi ilə təqsirli bilinib. Sözügedən maddə internetdə cəmiyyətə hörmətsizlik edən və əxlaq qaydalarını pozan şəxsləri cəzalandırmağı nəzərdə tutur. Bura internet vasitəsilə açıq şəkildə söyüş söymək, nalayiq jestlər etmək və ya bədənini milli dəyərlərə zidd formada nümayiş etdirmək daxildir.

İddialara görə, Bağırov TikTok-da canlı yayım zamanı Qarabağ döyüşlərində həlak olmuş şəxslərdən birinin ailə üzvünü təhqir edib.

Bloqerin özü də Qarabağ döyüşlərinin iştirakçısı olub.

Hazırda onun ittiham olunduğu CM-in 283.1 maddəsinin sanksiyasında 8 min manatdan 12 min manatadək cərimə və ya 2 ilədək islah işləri, yaxud da 4 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur